BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№2 Humanitar elmlər seriyası 2005*

# TOPONİMLƏRİN ADLANMAYA GÖRƏ NÖVLƏRİ

**S.Ş.ABBASOVA**

Toponimlərin ad vermə səbəblərinə görə təsnifi onomologiyada çox geniş yayılmışdır. Azərbaycan ərazisində mövcud olan toponimlərin tarixi linqvistik təhlili göstərir ki, coğrafi ərazilər müxtəlif əlamət və keyfiyyət xüsusiyyətlərinə görə adlandırılmışdır. Prof. A.Qurbanov şəxs, tayfa, qəbilə, heyvan, bitki, səma cisimləri və s. adları əsasında yaranmış toponimləri aşağıdakı kimi qruplaşdırmışdır:

a) şəxs adı, familiya, ləqəb, titul əsasında yaranan yer adları (antrotoponimlər);

b) tayfa, qəbilə adları əsasında yaranmış toponimlər (etnotoponimlər);

v) hidroterminlər əsasında yaranan toponimlər (hidrotoponimlər);

q) heyvan quş, balıq, həşərat və s. canlıların adları əsasında düzələn toponimlər (zootoponimlər);

ğ) bitki adları əsasında düzələn yer adları (fitotoponimlər);

d) səma cisimləri adı əsasında düzələn toponimlər (kosmotoponimlər); və s.

Təsnifatdan göründüyü kimi, toponimlərin yaranmasında müxtəlif vasitələrdən istifadə olunur.

Toponimlərin nominasiyaya görə təsnifi vaxtilə A.N.Selişev tərəfindən irəli sürülmüşdür. O, toponimləri şəxs və titul adlarından yaranmış adlara (indiki terminologiya ilə antroponimlərə), sənət və peşə bildirən adlara, etnik adlara və landştaft bildirən terminlərə ayırmışdır.

Toponimlərin nominasiyaya görə sistemli təsnifi E.M.Murzayevə məxsusdur: "Ən sadə bölgü coğrafi adların obyekt nominasiyalarına görə bölgüsüdür:

1) oronimlər – relyef elementləri, onun formaları – dağ, təpə, zirvə, qaya, düzənlik, tarla, çökəklik, eniş, vadi və s. adları;

2) hidronimlər – çay, onun qolları, bulaq, göl, dəniz, okean, su anbarları, kanal adları;

3) bitki örtüyü adları: meşə, park, çəmən, çöl, biçənək və s adları;

4) yaşayış yerləri adları: şəhər, kənd, müxtəlif stansiya, qəsəbə xutor, kolxoz, sovxoz və s. adları;

5) şəhər, qəsəbə, böyük kənd, stansiyalarda küçə, meydan, döngə, keçid, körpü və s. adları.

Müəllif haqlı olaraq göstərir ki, bu təsnifat heç də bütün toponimləri əhatə etmir. Sonralar E.M.Murzayev toponimlərin nominasiyaya görə bir qədər fərqli təsnifini təklif etmişdir:

1) relyefin bu və ya digər əlamətinə görə verilmiş ad;
2) su obyektlərinin əlamətlərinə görə verilmiş ad;
3) bitki növlərinə görə verilmiş adlar -fitotoponimlər;
4) heyvan növlərinin adlarına görə yaranan toponimlər-zootoponimlər;
5) insan adlarından, familiyalarından, ləqəblərindən yaranmış toponimlər – antrotoponimlər;
6) istehsalat toponimləri;

Toponimlərin tarixi-linqvistik təhlili prosesində obyektə görə nominasiyanın böyük əhəmiyyəti vardır. Toponimin obyektə görə nominasiyası nəzərə alınmazsa lazımi elmi nəticə əldə etmək olmaz. Fikrimizi sübuta yetirmək üçün Azərbaycanın müxtəlif regionlarından toplanmış faktik material əsasında oykonimlərin nominasiyaya görə növlərini nəzərdən keçirək. Qeyd etmək lazımdır ki, tədqiqat prosesində müxtəlif tarixi sənədlərdə, etnoqrafik toplularda, rus missionerlərinin yol qeydləri əsasında hazırlanmış məcmuələrdə çap olunmuş materiallardan istifadə olunmuşdur. Bir çox toponimlərin etimologiyasını açmaq üçün həmin mənbələrin elmi əhəmiyyəti olduqca böyükdür. Tarixin müxtəlif dövrlərində yer adlarının adının dəyişdirilməsi hadisəsinin izlənməsi baxımından da bu mənbələrin rolu əvəzsizdir. Hazırda düşmən işğalı altında olan rayonların yaşayış məntəqələri də geniş araşdırmaya cəlb edilmişdir.

**Oykonimlər və onların yaranma yolları.** Məlum olduğu kimi, Azərbaycan toponimiyasının mühüm bir hissəsini oykonimlər təşkil edir.

Oykonimlər kənd, qəsəbə, şəhər tipli yaşayış məntəqələrinin adlarını bildirirlər. Prof. A.Qurbanov "Azərbaycan dilinin onomalogiyası" adlı fundamental əsərində Azərbaycan toponimlərinin 4500-dən çoxunun oykonim olduğunu göstərir. Müəllif oykonimləri daşıdıqları ərazinin böyüklüyü, kiçikliyi əlamətinə görə komonim və astionimlərə bölür. Komonim kənd və şəhər tipli qəsəbə adlarını bildirir. Astionimlər şəhər yaşayış məntəqələrinin adını bildirir. Azərbaycan ərazisində 60 astionimin olduğu məlumdur. Qalan oykonimlər komonimlərdən ibarətdir.

Bizim araşdırmaya görə adlanma prinsipi üzrə yaranan oykonimlərin aşağıdakı növləri Azərbaycan toponimiyasında daha geniş yayılmışdır:

-etnonimik oykonimlər;
-hidronimik oykonimlər;
-oronimik oykonimlər;
-patronomik oykonimlər;

Monoqrafiyada sadalanan oykonim növləri toplanmış material əsasında şərh olunacaqdır.

**Etnonimik oykonimlər.** Azərbaycanda hazırda müxtəlif tarixi dövrlərdə yaranmış 4500-ə qədər iri yaşayış məntəqəsi vardır. Lakin yazılı mən-

bələrin olmamasına görə şəhərlərdən (Bakı, Şamaxı, Gəncə, Quba, Ordubad, Şəmkir, Qazax, Bərdə, Tovuz və b.) fərqli olaraq kəndlərimizin böyük əksəriyyətinin təxmini də olsa yaranma vaxtları məlum deyil. "Alban tarixi" və başqa qədim mənbələrdə adları çəkilən mahal və qala adlarının bəzilərinin də yaranma tarixi indiyədək mə'lum deyil. Bunlar əsasən, Şəki-Zaqatalada, Dağlıq Qarabağda və Qubadlı-Zəngilan zonasında yerləşən kəndlərdir: Kiş (Şəki r-nu), Erkəc (Goranboy r-nu), Diri (Qubadlı r-nu), Tiri (Zəngilan r-nu) və s. Tədqiqatlar nəticəsində belə bir nəticəyə gəlmək olar ki, indiki yaşyış məntəqədlərinin əksəriyyəti XII-XIX əsrlərdə yaranmışdır.

Azərbaycanın müasir toponimləri üzərində apardığımız araşdırmalar göstərir ki, XIX əsrdə və XX əsrin əvvəllərində toponimlərin əksəriyyəti əsas etibarı ilə üç yolla yaranmışdır:

1) Maldarlıqla məşğul olmuş tayfaların qışlaq və yaylaqlarda müxtəlif vaxtlarda oturaq həyatla əlaqədar xırda yaşayış məntəqələrini yaratmaları nəticəsində;

2) Oturaq kəndlərdə əhalinin artması və torpaqsızlıq nəticəsində müəyyən qrup ailələrin ayrılaraq başqa yerlərdə, (adətən həmin kəndə mənsub icma torpaqlarında) yeni məntəqələr yaratmaları nəticəsində. Məsələn, Aşağı Ağcakənd – Yuxarı Ağcakənd torpaqda miqrasiya prosesi nəticəsində yaranmışdır. Ona görə Aşağı Ağcakənd keçmişdə həm də "Ağcakənd mülkü" adlanırdı.

3) Köçürülmə nəticəsində. Bura əsasən, bir sıra ərəb, erməni, kürd və rus kəndlərini misal göstərmək olar.

Məsələn, Qarabağda iki Qarqucaq adlı kənd var. Əslində bu kəndlər Gəncə qəzasında maldarlıqla məşğul olan bir nəslin adını əks etdirir. Bu el öz adını "Qarqucaq" adlı yerdən almışdır. 1923-cü ilə aid sənədlərdə isə "Qarqucaq" Mirzə Əlibəy adlı birisinə mənsub torpaq sahəsinin adı idi. O, özünə məxsus 9 maldar ailəsini ora köçürür və beləliklə bu el Qarqucaq adlanır.

Şahsevənlərin bir qolu Xəlfəli adlanmışdır. Hazırda Azərbaycanda üç Xəlfəli adlı kənd vardır. Lakin xəlfəlilərin özləri də bir sıra nəsillərə bölünürdülər. Arxiv mənbəyinə görə Şuşa qəzasında yaşamış və Mehdiqulu xana mənsub olmuş bir hissə Xəlfəli xan İrana qaçandan sonra oturaqlaşaraq 2 məntəqə əmələ gətirmişdir: Laçınlar, Xudaverdi qışlağı, Xəlfə qışlağı, Zaman-pər, Şuşulu, Mirzələr, Məmişlər, Allahqulu uşağı; Şırran, Xanlıq - pəyə və Kosalar.

Məsələn, keçən əsrdə Göyçay qəzasında 35 ailədən ibarət bir elat Veysəlli adlanırdı. Oturaqlaşdıqdan sonra isə Veysəlli, Daş Veysəlli, Aşağı Veysəlli və Yuxarı Veysəlli kəndləri yaranmışdır.

Eyni sözü keçən əsrə qədər maldarlıqla məşğul olmuş bir sıra tayfaların əmələ gətirdiyi məntəqələr haqqında da demək olar. Bu barədə Azərbaycan ərazisində tayfa adlarından əmələ gəlmiş digər yaşayış məntəqələri haqqında da demək olar.

İkinci yolla düzələn toponimlərə Piçənis (Laçın r-nu) və Qrız (Quba r-nu) kəndindən yaranmış məntəqələri misal göstərmək olar. Arxiv materiallarına görə Piçənisin əhalisi öz mənşə etibarilə Qaraçorlu tayfasına mən-

subdur [64; 103]. Bu kəndin nə vaxt yarandığı məlum deyildir. Lakin keçən əsrin ortalarına aid mənbəyə görə cəmi 19 ailədən ibarət olan bu kənddən müxtəlif vaxtlarda ona mənsub icma torpaqlarında aşağıdakı məntəqələr yaranmışdır: Ağayazi (9 ailə), Nordin (6 ailə), Suvat (9 ailə), Unus (6 ailə), Fərrac (18 ailə) Xev (6 ailə), Yanıqpaya (6 ailə). Qaçaqkənd (Salyan r-nu) kəndində (digər adı Kərbalayi-Xəlilidir) XIX əsrdə 1886-cı ildə 150 ailə vardı. Torpaqsızlıq üzündən kəndən çıxmış ailəlr bir sıra yeni məntəqələr salmışlar. Bu məntəqələrə Qazaxkənd, Təzəqışlaq, Xanməmmədli, Qədimi-Cəfərlik (indi Qədimkənd adlanır) və Getgeri kəndlərini misal göstərmək olar.

XIX əsr ədəbiyyat materiallarından aydın olur ki. iri kəndlərin seqmentasiyası nəticəsində çoxlu yeni məntəqələr yaranmışdır. Yeni məntəqələr ya nəsillərin adları ilə, ya da məskunlaşdıqları yerlərin adları ilə adlanırdılar.

Bir misal gətirək.

Laçın rayonu ərazisindəki Qaraqışlaq kəndi XIX əsrin ortalarında 87 tüstüdən ibarət idi. Ondan aşağıdakı kəndlər yaranmışdır: Qılınclı, Quşi, Mişni, Sadınlar, Soyuqbulaq və Xaçılər.

Cəlilabad rayonunda eyni yaşayış məntəqəsindən də keçən əsrin ortalarında Abdulkəndi, Hasıllı, Seyidbazar, Hacıismayıllı adlı obalar yaranmışdır.

Pinəçis kəndi (Laçın r-nu) Qaraçorlu tayfasının məskunlaşdığı kəndlərdən biri olmuşdur. XIX əsrin ortalarında 19 ailədən ibarət olmuşdur. Həmin kənddən aşağıdakı kiçik məntəqələr yaranmışdır: Ağayazi, Noradin, Suvaş, Unus, Fərrac, Xev və Yanaqqaya.

**Hidronimik oykonimlər.** Hidroterminlər əsasında yaranan toponimlər hidrotoponim adlanır. Araşdırmada hidroterminlərdən yaranmış oykonimlər tədqiqat obyekti kimi seçilmişdir.

Hidronim konkret su mənbəyinə verilmiş addır. Bu konkretlik su mənbəyinin müxtəlif sözlərlə rəng, dad, hərarat, çaylarda rəng, axının sürəti və s. bildirən terminlərlə adlandırılmasında təzahür edir.

Bu qrupa daxil olan oykonimlərin yaranma qanunauyğunluğu oronimik oykonimlərdə olduğu kimidir. Əvvəlcə su mənbələrinin adları - hidronimlər yaranır, sonra isə bu hidronimlər müxtəlif vaxtlarda əhalinin təsərrüfat həyatı ilə əlaqədar olaraq oykonimə - hidronimik oykonimlərə çevrilirlər. Buradan belə nəticə çıxarmaq olar ki, hidronim hidronimik toponimlərdən və o cümlədən hidronimik oykonimlərdən qədimdir.

Hidronimik oykonimlər əsas etibarilə iki qismə ayrılır:

1. Çay adlarını bildirən hidronimlərdən yaranmış oykonimlər;
2. Bulaq adlarını bildirən hidronimlərdən yaranmış oykonimlər.

Hidronimlərin oykonimlərə - yaşayış məntəqəsi adlarına çevrilməsinin bir səciyyəvi xüsusiyyəti vardır: hidronimik oykonimlər hidronim (çay, bulaq və s.) ilə eyni cür səslənir: başqa sözlə hidronimə heç bir yaşayış məntəqəsi adı bildirən söz əlavə olunmur və bununla da paralel oykonim yaranır. Birinci qismə aid hidronimlərə Avaxır - Şamaxı rayonunda həm hidronim, həm də yaşayış məntəqəsi; Varna (əsl Varna Ağsu rayonundakı Yeniabad (keçmiş Sənqəlan) kəndidir. İsmayıllı rayonundakı Varna kəndi hə-

min rayonunu Həftəsav kəndindən XIX əsrin əvvələrində bir qrup ailənin "Varna" adlı yerdə məskunlaşması nəticəsində yaranmışdır.)

1870-ci ildə orada cəmi 6 ev vardı.

Xaltan-Quba rayonunda bulaq və kənd adı (Xaltan toponimi mənşəcə hidronimdir və "isti su" deməkdir ( Xaşı-quba rayonunda bulaq və kənd. Xaşı kəndinin adı mənasına görə "yaxşı su, xoş su" deməkdir. Oradakı "isti su" adıdır. Bu göstərir ki, "bulağın adı" kənd yaranmamışdan qabaq mövcud imiş.

Bu qəbildən olan hidrooykonimlərə aşağıdakıları misal göstərmək olar: Ağbulaq, Qarabulaq, Sarıbulaq (Balakən, Kəlbəcər rayonları), Soyuqbulaq (Laçın), Sərinbulaq (Lənkəran), Qozlubulaq (Şəki), Qoşabulaq (Gədəbəy), Qoşasu (Laçın, Gözbulaq (əslində Qozbulaqdır)-Şəmkir, Göyüzbulaq (Cəlilabad), Korcabulaq (Laçın), Aydınbulaq (Şəki), Siyov kənd - Lerik (talış dilindəki "siyo"-qara və "ov" -su sözlərini birləşməsindən əmələ gəlmişdir. Bunlar həm hidronim (bulaq adı), həm də hidrooykonimlərdir və bunları fərqləndirən komponent yoxdur.

İkinci qismə aid hidronimik oykonimlərə talış mənşəli Avyarud (talış dilində "Alçaçay" deməkdir) -Astara. Azaru (İran dillərindəki asa "sürətli, iti" sözündən olub "iti çay! Deməkdir, talış dilində bu söz saxlanılmışdır). Azərbaycan türk mənşəli Susay (Quba)- çay və kənd adı, Mazımçay (Ağsu), Sulut (İsmayıllı), (Sulut kəndinin adına monqol mənbələrində rast gəlinir. Monqol dilində tulut "daşlı çay" sözündədir.

Yaxud İran mənşəli Bəhrud (İran dillərindəki bəh "xoş məramlı" və rud "çay" sözlərindən ibarətdir.) və b. yaşayış məntəqə adlarını qeyd etmək olar. Çay və bulaq adlarının yaşayış məntəqə adlarına çevrilməsi su mənbələrinin yaşayış üçün rolu ilə izah olunur. Bura Balaxanı və Suraxanı toponimlərini də aid etmək olar. Hidronimik oykonimlərin bu qrupu mürəkkəb adlardır, başqa sözlə, yaşayış məntəqəsi tikinti bildirən terminlər (kənd, binə, qışlaq, oba) su mənbələrini (diqqət verin, su mənbələrinin adlarını demirik) ifadə edən sözlərə (çay, bulaq, və s.) birləşərək hidronimik oykonim əmələ gətirir Çaykənd, Bulaqotağı və s. Buna uyğun olaraq, fikrimizcə, hidronimlərdən yaranmış oykonimlər hidronimik oykonimlər, su mənbələrinin adlarını bildirən apelyativ sözlərdən yaranmış oykonimlər isə hidrooykonimlər adlandırılmalıdır.

Sonuncu qrupa, məsələn, Bülbülə (Abşeron rayonundakı bu oykonim pilpilə "palçıq vulkanı" sözlərindən yarandığı ehtimal olunur), bundan başqa Taynaq (Mirbəşir) kənd adlarını göstərmək olar. Dialektlərdə taynax "qara su" deməkdir.

Hidronimik oykonimlərin böyük bir hissəsi bulaq adlarını əks etdirən hidronimlərdən əmələ gəlmişdir. Demək, bulaqlar onları tapıb üzə çıxaran və ya tə'mir edənlərin adları ilə adlanmış, sonra da bu bulaq adları oralarda yaşayış məntəqələrinin adlarına çevrilmişlər. Belə halda kəndin adı bulağın adı ilə eynilik təşkil edir: Xəlfə honu kəndi (Lerik r-nu), Xəlfə şəxs adından və talışca honu "bulaq" sözündən yaranmışdır.

Hidronimlərin özləri də aşağıdakı növlərə ayrılır:

1) Etnonimik hidronimlər. Bu hidronimlər tayfa və ellərin su mənbələri ətrafında yaşaması ilə əlaqədar yaraşmışdır. Adətən bunlar çay adlarıdır: Ayrımca çayı (Kəlbəcər), Alpout çayı (Qazax), Bayandur çayı (Laçın), Bərgüşad çayı (Ucar), (Qızılbaşların Bərgüşad tayfasının adındandır. Oradakı kənd də Bərgüşad adlanır), Bolqarçay (Biləsuvar r-nu), Bucaq çay (Oğuz), Qıpçaq çayı (Qax) (qeyd edilməlidir ki, bə'zi etnonimik hidronimlərlə etnonimik oykonimlər eynilik təşkil edir. Başqa sözlə kəndin adı ilə oradan axan çay adı eynidir. Ona görə bunlardan hansının ilkin olduğunu müəyyən etmək olmur. Cəlair çayı və Cəlairdağı (Quba) buna misal ola bilər), Qullar çayı (yenə orada), Qazançı çayı (Culfa), Qaradağlı çayı (Əskəran), Quşçu çayı (Daşkəsən), Dolaplar çayı (Qəbələ), (Qızılbaşların Zülqədər tayfasının adını daşıyır.), Padar çayı (Zəngilan), Sabunçu çayı (Zaqatala), Sumqayıt çay, Tərtərçay, Tikanlı çay (Qəbələ), Çingil çay (Şamaxı), Çavundur çay (Arazın qolu), Xələc çayı (Dəvəçi) və s.

2) Hidronimlərin digər hissəsi təbii keyfiyyətlərinə görə adlandırılmışdır:

a) suyunun rəng çalarlığına görə -ağ, qara, göy, sarı və s. "sarı" sözü əsas bulaq adlarında (kükürdlü olduqların grə sarı çöküntü verir) əksini tapır. Bəzi axmaz və göl adlarında isə sarı sözü torpağın rəngini (sarı, lilli olması və s.) bildirir. Məsələn, Oğuz rayonunda Sarısu axdığı ərazidə çarı rəngdə gil süxurlarına görə adlanmışdır.

b) suyunun dadına görə (acı, turş);

v) suyunun hərarətinə görə (isti, ılıq, soyuq);

q) axınına görə.

Əsasən çay adları üçün səciyyəvi olan belə hidronimlərə <u>Axınca</u> (sakit axına malik mənasındadır); <u>Vəlvələ</u> (fars dilində <u>vəlvələ</u> "uca səsli", "dəhşətli səsli", ərəb dilində "qarışıqlıq" deməkdir.) Həqiqətən də, Təngə dərəsindən çıxandan sonra yaz aylarında bu çay gur səsə malik olur və səsi çox uzaqlara gedir; <u>İncə</u> (dayaz, yayda mənsəbə çıxmayan çay mə'nasındadır); <u>Ənbərçay</u> (Qanlıqobu adlanan çaydan (Qax) sonralar qurulduğuna görə dialektlərimizdə ənbər "kiçik çay", "dayaz arx" mə'nasındadır); Əsrük, Tüğyan və Kürəkçay (uzunluğu 126 min metr), fikrimizcə, türk dillərində kürən "qaçqın", "iti sür'ətli" sözündəndir) və s. göstərmək olar.

3) Hidronimlərin bə'ziləri (əsasən bulaq və göl adları) metaforik adlardır, yəni onların xarici görünüşcə məişətdə istifadə olunan qablar (qazan, çanaq, təknə və s.) formasında olmalarıdır. Qazanbulaq, Qazançay, Çanaqbulaq (Yardımlı rayonunda kənd. Bir mə'lumata görə bu ad Cənubi Azərbaycandan gətirilmədir. Əhalisi Çanaxbulaq kəndindən gəlmişdir. Hidronimlərin bir qrupu oronimlərlə bağlıdır. Bunun səbəbi aydındır, bu su mənbələrinin ümumiyyətlə dağlarla əlaqədar olmasıdır. Buradan aydın olur ki, əhali bu su mənbələrinə dağlarla eyni vaxtda ad vermişlər.

Ağqaya çayı (Tovuz), Ağdaban çayı (Tərtər hövzəsi), Azdərə çay (Girdmançay hövzəsi), Qabaq təpə çay (Şamxor), Qızılkam çayı (Qusar) (ləzgi dilində "kam" dərə deməkdir), Dübrar çayı (Abşeron) ("İki qardaş" dağının adı ilə), Sarıdaş çayı (Şamaxı) (Sarıdaş yaylağının adı ilə).

4) Hidronimlərin bir hissəsi oykonimik adlardır:

Dizavar çayı (Abşeron), Digah çay (Quba), Diko çayı (Astara), Xalxal çayı (Oğuz), Gəncəçay (Gəncə şəhəri), Altıağac (Abşeron), Binəqədi gölü (Binəqədi), Qamqaş çayı (Quba), Qarayar çayı (Cəlilabad), Qusarçay (Qusar) və b. Zərisli çayı (Şuşa), Zəylik çayı (Daşkəsən), Zəngilan çayı (Laçın) çay adlarının yaranması müxtəlif şəraitdə baş vermişdir. Zaris XII əsrə qədər qədim qalanın adı olmuşdur. Sonra buradan çıxmış əhalisi Zərisin kəndini əmələ gətirmiş, oradan axan çay isə məntəqənin adı ilə adlanmışdır. Zəylik çayı şübhəsiz ki, ən əvvəl zəy çıxarılan mə'dənin adındandır, sonra yaşayış məntəqəsi yaranmışdır. Əslində Zəylik çayı Zərlik kəndindən əvvəl mövcud olmuşdur. Piçənis kəndi əvvəlcə yaylaq yerinin adı olmuşdur, çay onun adı ilə adlanmışdır. Sonra yaranan kənd həm qışlağın, həm də çayın adını qəbul etmişdir. Domnçay (Hadrut), Əlicə çay (Culfa), Əmirvar çayı (Şamxor çayı hövzəsi), Ərzingün çayı (Dəvəçi), Ərkivan çayı (Masallı), Ərgivan çayı (yenə orada), Əskipara çayı (Mirbəşir), Zabux çay (Astara), Şinçay (Şəki) çaylarının adları ərazisindən axdığı kəndlərin adlarını əks edir. Əlis çayı (Şəki), Balakən çayı, Vartaşen çayı, Vəndəm çay (Qəbələ), Vənən çayı (Ordubad) və s. də bu qəbildəndir.

Hidronimik oykonimlər həm də çay adlarından düzəlmişlər. Bunlarda İstisu, Qarasu, Ağsu, İlisu, Həsənsu, Başbulaq, Çalaxbulaq, Qarabulaq, Şirinbulaq, Qoşabulaq, Yosunbulaq, Soyuqbulaq, Qazanbulaq, Eynibulaq, Gözüzbulaq, İstibulaq, Çorçubulaq və i.a. Sitalçay, Gilançay, Türyançay, Mazınçay, Yeniarx, Əmirarx, Korarx, Kotanarx, Hidarx, Çəltikarx və s. Nohur düzü, Nohurqışlaq və s.

**ВИДЫ ТОПОНИМОВ ПО ИХ ТОЛКОВАНИИ**

**С.Ш.АББАСОВА**

**АННОТАЦИЯ**

В этой статье исследуется формирование азербайджанских топонимов по причинам их наименования на основе толкования свойств различных географических имен.

Изучение этих фактов свидетельствует о значительном месте палеотопонимов тюркского (азербайджанского) происхождения в данной топосистеме.

В указанном аспекте исследуются как система ойконимов, так и система оронимов и гидронимов.